

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 247 (24.134)

*28 dekabr 2022-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

# Şəhər içində şəhər

## Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında bir sıra infrastruktur obyektlərinin inşası tamamlanıb

### *Prezident İlham Əliyev görülən işlərlə tanış olub, Qarabağ Atları Kompleksinin təməlini qoyub*



Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında bir sıra tikililər, avtomobil yolları və digər infrastruktur işləri tamamlanıb.

Dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kvartalda görülən işlərlə tanış olub, Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoyub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına Kvartalda görülən işlər barədə məlumat veriblər.




Bildirilib ki, Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən müxtəlifölçülü küçələrin salınması və yolaltı kommunikasiya infrastruktur işləri tamamlanıb. Bunlar, əsasən, Qarabağ Atları, 3-cü Şərq, 6-cı Park küçələri və bir sıra digər küçələrdir.

Bununla da artıq Ağ Şəhərin Xaqani Rüstəmov küçəsindən əlavə daha iki küçəsinin Babək prospektinə rahat giriş və çıxışı təmin ediləcəkdir. Prospekt boyunca magistral su xətti, yüksək və orta təzyiqli qaz xətləri, elektrik magistral xətlər köçürülərək Ağ Şəhər layihəsinə uyğunluğu təmin edilib.

Tamamlama işləri çərçivəsində arabalar üçün panduslar, yerüstü piyada keçidləri, qoruyucu tumbalar, Daxili İşlər Nazirliyinin "Təhlükəsiz şəhər" xidməti tərəfindən videokameralar quraşdırılıb, "Azərsu" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətləri, "Azəriqaz" İstehsalat Birliyi tərəfindən yeraltı kommunikasiyalar, "Delta Telecom" MMC tərəfindən isə İT kanal sistemləri çəkilib.

Mərkəzi Park Kvartalı 2017-ci ildə təhvil verilmiş Paris evlərindən əlavə, 36, 20 və 8 mərtəbəli yaşayış binaları, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binaları, ticarət və ictimai iaşə obyektləri, orta məktəb, ofis və dövlət inzibati binaları, bir sıra park və yaşıllıq zonalarından ibarətdir.

Bildirildi ki, Qarabağ Atları küçəsinin mərkəzində səkkizmərtəbəli, müasir fasadlı yaşayış binalarının əhatəsində Qarabağ Atları Meydanı yerləşir.

Prezident İlham Əliyev Qarabağ Atları meydanına gələrək burada ağac əkdi.

Sonra dövlətimizin başçısı Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoydu.

Meydanla tanışlıq zamanı qeyd olundu ki, ətrafdakı binalarda mağazaların, kafe və restoranların, digər ictimai iaşə obyektlərinin açılması nəzərdə tutulur. Burada həmişəyaşıl ağaclar və kollardan ibarət landşaft salınıb. Meydanın mərkəzində Qarabağ atlarının heykəl kompleksi quraşdırılıb. Qarabağ Atları heykəl kompleksi Azərbaycanın Qarabağ torpaqlarının 30 illik işğaldan azad edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindəki Zəfərinə həsr edilib. Yeddi Qarabağ atından ibarət kompleksin hazırlanmasına amerikalı heykəltəraş Robert Sammers cəlb olunub. Qeyd edək ki, heykəltəraş Dallas şəhərində yerləşən "Mal-qara sürülməsi", Kaliforniya hava limanında "Con Ueyn" və digər əsərləri ilə dünyada məşhurdur.






Qarabağ Atları küçəsində avtomobillərin və piyadaların təhlükəsiz hərəkəti üçün hər cür şərait yaradılıb. Burada Ağ Şəhər layihəsinə uyğun olaraq piyadalar üçün panduslar və yerüstü keçidlər salınıb, eni 6-8 metr olan səkilərdə xüsusi dizaynlı daş düzümündə küçənin adı qeyd edilib, yaşıllıq zolaqları salınıb, avtomobil və velosiped dayanacaqları yaradılıb, piyadaların istiqamətləndirilməsi üçün yol göstəriciləri və xəritələr, tullantı qutuları, oturacaqlar quraşdırılıb. Küçə şimalda Babək prospektinə, cənubda isə Mərkəzi Parka birləşir.



Prezident İlham Əliyev avtobusla Bakı Ağ Şəhər Mərkəzi Park Kvartalını gəzdi.

Dövlətimizin başçısına məlumat verildi ki, Meydanın ətrafındakı yaşayış binalarının birinin fasadında keramikadan xüsusi hazırlanmış pano quraşdırılıb. Həmçinin burada dördmərtəbəli hipermarket binasının, Babək prospektində müasir dizaynlı çoxfunksiyalı binanın və yaşıllaşdırılmış avtodayanacağın inşası başa çatıb. Bu kommersiya binaları Babək prospekti boyunca yerləşən satış və ticarət məkanlarının davamı olacaq.

Diqqətə çatdırılıb ki, burada, həmçinin Bakı Ağ Şəhərin "landmark"ı olan və hazırda tikintisi aparılan 12 mərtəbəli ofis binası beynəlxalq standartlara uyğun iş məkanı təklif edəcək. Yeraltı və yerüstü avtodayanacaqların, müasir havalandırma sisteminin, sürətli liftlərin nəzərdə tutulduğu binanın qarşısında gəzinti və istirahət üçün geniş yaşıl meydan salınacaq. Ətraf mühit və ekologiyanı tikintidə əsas amil kimi nəzərə alaraq binanın BREEAM ekoloji sertifikatlaşma təşkilatı tərəfindən layihələndirmə mərhələsindən dəyərləndirilməsinə başlanılıb. Bu artıq Bakı Ağ Şəhərdə BREEAM sertifikatlı ikinci ofis binası olacaq, 12 mərtəbəli biznes mərkəzi beynəlxalq standartlara uyğun iş məkanları təklif edəcək. Biznes mərkəzinin arxasında, hündür binaların əhatəsində 1 hektar ərazisi olan Mərkəzi Park layihələndirilib. Parkda gözoxşayan landşaft və incəsənət nümunələri yer alacaq. Bu park piyadalar üçün şimalda Babək prospekti və Qarabağ Atları meydanından başlayan Fəvvarələr meydanı və piyada körpüsü boyunca Ağ Şəhər bulvarınadək 2 kilometrlik maneəsiz gəzinti xiyabanı üzərində yerləşəcək.

*Ardı 2-ci səhifədə*

**Prezident İlham Əliyev:** Məqsədimizə çatmışıq, şəhər içində artıq şəhər var.

**Ruslan Sadıxov:** Maşallah, cənab Prezident, qoyduğunuz bütün təməllər hamısı uğurlu olur. Ağ Şəhər də onlardan biridir. Həm uğurlu, həm də böyük bir ekoloji layihə kimi dünyada tanınır. Həmçinin Bakı şəhərinin sakinləri arasında da böyük etimadla qarşılanır.

Dövlətimizin başçısına Bakı Ağ Şəhər layihəsi çərçivəsində növbəti illərdə görüləcək işlər barədə də məlumat verildi.

Qeyd edək ki, Bakı Ağ Şəhər layihəsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər planı" çərçivəsində həyata keçirilir. Bakı Ağ Şəhər dünyanın qabaqcıl və müasir ekoloji şəhərsalma layihəsi kimi müxtəlif beynəlxalq və yerli mükafatlara, Honkonqda "MIPIM Asia Awards 2011" müsabiqəsində "Mərkəzi və Qərbi Asiyanın ən yaxşı gələcək layihəsi" nominasiyasında, Dubayda "Cityscape Global" və bir sıra digər sərgilərdə "Ən yaxşı şəhərsalma layihəsi" kimi müxtəlif mükafatlara layiq görülüb.

Ağ Şəhərin təhvil verilmiş kvartallarında artıq minlərlə sakin keyfiyyətli və müasir şəhər mühitində yaşayır. Burada layihələndirilən və tikilmiş binalar, parklar və digər ictimai yerlər Bakı şəhərinin gözəl memarlıq simasına öz töhfəsini verməkdədir.

**AZƏRTAC**



# Birlik, mübarizlik, qəhrəmanlıq simvoludur həmrəyliyimiz

## *Zəfər Abidəsi qarşısında düşüncələr...*

*Səhərin erkən saatlarıdır... Ətrafa hakim kəsilmiş sükutu qışın həzin melodiyası, havada olan sərin mehin simfoniyası pozur. Yolboyunca uzanan ağaclara, günün bu saatında işinə tələsən çöhrələri nurlu, əlləri ruzi-bərəkət ətirli zəhmətsevər insanlara tamaşa edə-edə bir ünvanın yolunu tutmuşam. Hava soyuq olsa da, mənzilbaşına çatmaq niyyəti insanı tamam ayırır bu aləmdən, özün də bilmədən, ağlında qurub-yaratdığın düşüncələrin sehrinə qapılırsan. Çox keçmir ki, hər bir azərbaycanlının qəlbini riqqətə gətirən, daim tariximizdə şərəf nöqtəsi kimi tanınan o müqəddəs sözü uzaqdan seyr edirəm. 30 ildir, həsrət qaldığımız, indi isə dilimizin əzbərinə çevrilən "Zəfər" kəlməsi, ardınca isə şəhərimizin mərkəzində əzəmətlə ucalan Zəfər Abidəsi qarşılayır məni...*

### *Böyük qələbənin təntənəsi, Xalq-Ordu birliyinin rəmzi*

Üçrəngli bayrağımızın ornamentlərini özündə birləşdirən Zəfər Abidəsinin qarşısında dayanıram. Bir anlıq yolboyunca zehnimə hakim kəsilmiş düşüncələr təzahür edir, ağlımdan kəlmələrə, oradan da ağ vərəqə həkk olunur... Bu abidə yalnız 44 gündə əldə etdiyimiz tarixi qələbənin simvolu deyil, bu həm də əsrlərin, qərinələrin şahidi olan qəhrəmanlar yurdumun ərşə ucalan haqq səsi, düşmənin bağrını dələn, dosta cəsarət verən bir amalın, bir vüqarın təntənəsidir. Ötən əsrin sonlarında düşmənin amansız işğalı ilə xalqımıza isti qucaq, doğma ocaq olan ana torpaqların azadlığa qovuşmasının sevinci, illərin həsrətinin vüsala qovuşmasıdır bu əzəmətli sənət əsəri. Bu abidə o qələbənin nişanəsidir ki, Azərbaycan xalqı nə az, nə çox düz 30 il onun həsrətini çəkdi. Cəbhədən gələn hər xəbərdə, ay-ulduzlu bayrağa bükülü tabutlarda, daşlara həkk olunmuş nurlu simalarda axtardı o Zəfəri. Bir anlıq da olsa, insan qayıtmaq istəyir həmin illərə, heç zaman unutmadığımız, unuda bilmədiyimiz tarixin qara səhifəsinə. Amma "pis günü yad etmək adı zəfərlə qoşalaşmış, mübarizliklə birləşib, qələbə ilə kamala çatmış bir xalqa yaraşmaz", – deyib zehnimdəki bu düşüncələri üstələyirəm. Tək onu dilə gətirirəm ki, minlərlə soydaşlarımızın ata-baba yurdundan qovulmasına, torpaqlarımızın tarmar edilməsinə Vətənimiz, şanlı Ordumuz razı olmadı, ola bilməzdi də... Düşmənin işğal altında olan torpaqlarımızda qurub-yaratdığı və keçilməz hesab etdiyi istehkam məntəqələrini rəşadətli Azərbaycan Ordusu bıçaq yağı kəsən kimi cəmi 44 gündə kəsib keçdi. Düşmən bir şeyi unutmuşdu ki, zülmün topu var, gülləsi var, qəlsi varsa, Haqqın da bükülməz qolu, dönməz üzü vardır...

### *Vətəni qorumaqdır ən müqəddəs arzumuz...*

Bu gün hər birimiz qürurla, fəxrlə deyə bilərik ki, xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan Qarabağ Zəfəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli sərkərdəliyi, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına qazanılıb. Azərbaycanın Silahlı Qüvvələri İkinci Qarabağ müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün döyüş əməliyyatlarını yüksək səviyyədə həyata keçirməklə mənfur düşməni diz çökdürdü, şanlı Zəfər qazandı və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Yenilməz, rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində 44 gün ərzində qazanılan bu qələbə hər bir azərbaycanlı üçün son dərəcə əziz və qiymətlidir.

Şanlı və tarixi Qələbəmiz Azərbaycan xalqında milli birliyə, yeni bir dirçəlişə səbəb oldu. Azərbaycan xalqı Prezidentimizin ətrafında "Dəmir yumruq" kimi birləşərək, sözün əsl mənasında, böyük xalq, ulu türk millətinin cəsur, qəhrəman ulusu olduğunu bir daha sübut etdi, cəmiyyətimizdə mövcud olan Xalq-Lider-Ordu birliyini daha yüksək səviyyəyə qaldırdı. Xalq öz liderinə ürəkdən inandı və Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının etimadını əməli fəaliyyəti və şanlı Zəfəri ilə doğrultdu. Möhtərəm Prezidentimiz öz qətiyyəti, sarsılmaz iradəsi, cəsarəti, Azərbaycana edilən bütün təzyiqlərə məharətlə sinə gərməsi və son dərəcə mürəkkəb, çətin müharibə şəraitində siyasi arenada, informasiya müharibəsində parlaq qələbələr qazanaraq xalqına söz verdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyev öz adını milli tariximizin son 200 ildə ən şanlı və müzəffər sərkərdəsi kimi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə əbədi həkk etdi. İnanırıq ki, bu tarix, bu qələbə, bu müqəddəs hərəkat, tutduğumuz haqq yolu, millət yolu əsrlər ötdükcə daha böyük qürurla xatırlanacaq.

### *Hər zaman həmrəy ol, Azərbaycan!*

Hər il təqvimin bu günləri – Həmrəylik Günü ərəfəsi yaxınlaşdıqda orta məktəbdə tarix müəllimimdən eşitdiyim hadisələri xatırlayıram, ya da həmin hadisələrin canlı şahidlərinin dedikləri, ömür kitablarına qara yazıtək həkk olunan o ağrılı-acılı prosesləri düşünürəm. Zəfər Parkında keçən müddətdə yenə mənə xatırladır eşitdiklərimi, oxuyub-öyrəndiklərimi... Milli tariximizdəki qanlı-qadalı hadisələr yalnız "Arazı ayırıb su ilə doyurmamışdı", həm də dili bir, dini bir soydaşlarımızı bir-birindən ayırmışdı. Araz çayı boyunca uzanan tikanlı məftillər arzuları, ümidləri ədalətin sınağına elə çəkmişdi ki, ustad Şəhriyarın "O tay, bu tay fərqi yoxdur, Vətəndir!" fikirləri sanki öz reallığını itirmiş, "Ömürdən pay verərlər, Vətəndən pay olmayır" kəlmələri yerini qulaqbatıran hayqırtılara vermişdi. Ötən əsrin 80-ci illərinin sonlarında hadisələrin baş verməsi də təsadüfi deyildi. Keçmiş ittifaq məkanında gedən proseslər Azərbaycanda milli oyanış hərəkatının geniş vüsət almasına gətirib çıxardı. Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi, Dağlıq Qarabağda yaşayan ermənilərin açıq separatçılıq hərəkatı, bu proseslərin Ermənistan və Dağlıq Qarabağda yaşayan yüz minlərlə azərbaycanlının öz yurd-yuvasından qovulması ilə nəticələnməsi milli azadlıq hərəkatının əsasını qoydu. 1988-ci ildə paytaxt Bakının mərkəzi meydanında toplaşan Azərbaycan xalqının etirazları, qaldırdığı haqq-ədalət şüarı öz bəhrəsini verdi.

### *Naxçıvanda səslənən haqq-ədalət şüarı...*

Ölkəmizin bir çox bölgələrində alovlanan bu proseslər Naxçıvan Muxtar Respublikasında da özünü göstərdi. Quru sərhədləri bağlanmış, blokada şəraitinə salınmış, anası Azərbaycandan cismani surətdə qopub ayrılmış diyarın insanları, daha dəqiq desək, müstəqil olmağa, azad yaşamağa layiq olan Naxçıvan əhalisi böyük həmrəylik nümayiş etdirdi. Lakin xalqın haqq səsini boğmaq istəyənlər, dövlətin idarə taxtında əyləşib "masabəyilik" edənlər bu hərəkata əngəllər törətməyə çalışırdı. Həmin illərdə iqtidarda olan Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi və onun yerli orqanları, ölkənin sərhəd qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün hərbi-siyasi təsir vasitələrinə əl atdılar. Bütün bu siyasi təzyiqlərə, çalxantılara baxmayaraq, Azərbaycan xalqının birliyindən, birgəliyindən güc alan Naxçıvan əhalisi ardıcıl olaraq "Sərhəd hərəkatı" adı ilə bir sıra siyasi aksiyalar həyata keçirdi. Genişlənən demokratik hərəkatın nəticəsində SSRİ-nin dövlət sərhədi boyunca çəkilən sərhəd çəpərləri elliklə söküldü. İlk dəfə olaraq Arazın o tayında, bu tayında olan qohumların, həmvətənlərin ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu il dekabrın 31-i dünya Azərbaycan türklərinin həmrəyliyi bayramına çevrildi, 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi.

Düşmənin məkrli niyyətinə boyun əyməyən soydaşlarımızın qaldırdığı bu mübarizə nəticəsində, 1991- ci il 31 dekabr Azərbaycan tarixinə Milli Həmrəylik Günü kimi həkk olundu. Ümummilli Liderimiz 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərindən birində deyirdi: ***"Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır. Hal-hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla soydaşımız yaşayır, işləyir, fəaliyyət göstərir. Buna baxmayaraq, onların milli-mənəvi varlığını yaşadan yeganə bir dövlət var. Bu, müstəqil, suveren Azərbaycan Respublikasıdır. Dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının əsasını da məhz Azərbaycan dövlətçiliyinə, xalqımızın dilinə, dininə, milli-mənəvi varlığına və ümumbəşəri dəyərlərə hörmət, onların daim qorunmasına, yaşamasına qayğı təşkil edir".***

Həmin şanlı tarixdən sonra həmrəylik günümüz hər bir Azərbaycanlının hafizəsində azadlıq yolunda atılan məqsədyönlü siyasətin ilkin addımları kimi xatırlanır. Çünki bu ali məqsəd öz bəhrələrini verdiyi gün yüz minlərlə Azərbaycan türkünün hər iki sahildən Arazın sahillərinə yürüdüyü, orda qovuşub bir-birinə gözaydınlığı verdiyi, Arazın buzlu suyundan cənnət suyu kimi içib sevinclərini bölüşdükləri bir gündür. Bu gün Vətənimizin tarixinə həkk olunan qara yazıların Arazın vüsal yanğısı ilə coşubdaşan suyu ilə yuyulub təmizləndiyi gündür, türkün qüdrətinin, xalqın birlik və bərabərliyinin dünyaya bəyan edildiyi, Vətənin gələcək azadlığının bərqərar olunduğu gündür. Bu tarix əsrlər, qərinələr ötdükcə hər an xatırlanacaq, nəsillərdən-nəsillərə miras qalacaq tarixdir. Zəfər Abidəsinin altında yad etdiyim hər iki əlamətdar gün – Zəfər Günü və Həmrəylik Günü hələ min illər türkün biləyinə qüvvət, əqidəsinə güc, qüdrət verən tarix kimi qalacaq.

### *Zəfər Parkından ayrılarkən...*

Mübarizliyindənmi deyim? Qəhrəmanlığındanmı yazım sənin, ey ana Vətən! Nədəndir bilmirəm...həqiqətdən başqa heç nəyin qarşısında əyilməyən qələmim aramlığını itirər adın çəkiləndə, şəninə şeirlər oxuyanların səsi titrəyər, adını çəkdikdə səndən ayrı düşənlərin gözlərindən sevinc göz yaşları süzülər, düşmən bir qarış torpağına əl uzadanda ər oğulların sinələrini sipər edər namərd gülləsinə, şəhid anaları "Vətən sağ olsun!" – deyər, şəhid ataları "Vətən yolunda canımız fədadır!" söyləyər. Bu qeyrət borcu ola gərək, Vətən borcu ola gərək... Sən əcdadlarımın yaradıb-yaşatmaq eşqisən, ulu ozan Dədə Qorqudun xeyir-duasından ilhamlanmış vüsal çələngisən, Qaraca Çobanın xanına sədaqətinə, Qaragünənin qardaşına, Burla Xatının başının tacına, ömürgün sirdaşına, Qazan xanın elinə, Beyrəyin eşqinə, Banuçiçəyin əhdipeymanına olan sədaqətinin şahidisən. Sən ömrünü xalqına həsr etmiş o dahi rəhbərin – Ümummilli Lider Heydər Əliyevin: ***"Doğma, canım – varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır!"*** – deyib bəyan etdiyi eşqin, məhəbbətin təcəssümüsən, ata vəsiyyətinə sədaqət andı içən Qalib Sərkərdənin, Ali Baş Komandanın qalib etdiyi məmləkətsən. Sən Vətənsən, sən azadsan, sən müstəqilsən. Sən Ulu türkün "min yol öldürülən, amma ölməyən əzəli-əbədi Azərbaycanam!" – deyib vəsf etdiyi Ana yurdsan!



**Məcid RƏŞADƏTOĞLU**

# Naxçıvan ictimaiyyəti: *“Ölkə başçısının dövlət idarəçiliyi sahəsində apardığı islahatlar kadr siyasətinin düzgün təkmilləşdirilməsinə, bütün sahələrdə inkişafa xidmət edəcək”*

*Ümummilli Liderimiz Heydər Əliyevin əbədiyaşar ideyalarının təntənəsi, dahi şəxsiyyətin əsasını qoyduğu müdrik siyasi xəttin ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dövrün çağırışlarına uyğun yeni müstəvidə uğurla davam etdirilməsi ölkəmizə beynəlxalq aləmdə böyük nüfuz qazandırıb, xalqımıza 200 illik tarixin ən böyük Zəfərini, qələbəsini bəxş edib. Praqmatik düşüncəli, uzaqgörən dövlət başçısının* ***“Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Yaxın tarix dəfələrlə bunu göstərib, həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda döyüş meydanında. Nəyi ediriksə, dəqiqliklə edirik”*** *sözləri həm 44 günlük Vətən müharibəsində, həm də son 19 ildə ölkə həyatının bütün sahələrində reallaşdırılan islahatlarda, dövlət idarəçiliyinin təkmilləşdirilməsi prosesində özünün əyani təzahürünü müfəssəl şəkildə tapıb. Prezidentin 2022-ci il dekabrın 22-də atdığı növbəti mütərəqqi addım sayəsində işğaldan azad olunan Qarabağ regionundan sonra Naxçıvan Muxtar Respublikasında da dövlət idarəçiliyi sistemində yeni mərhələnin əsası qoyuldu. Belə ki, dövlət başçısının müvafiq fərmanları ilə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis olundu və Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi təyin edildi. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanının 3.2 və 4-cü maddələrində qeyd olunur: “səlahiyyətli nümayəndə Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikasının Prezidentini təmsil edən vəzifəli şəxsdir və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi səlahiyyətləri həyata keçirir. Mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət qurumları Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyətlərini səlahiyyətli nümayəndə ilə əlaqələndirilmiş qaydada həyata keçirsinlər”. Ölkə gündəmində geniş müzakirələrə səbəb olan mühüm əhəmiyyət kəsb edən bu tarixi hadisə ilə bağlı muxtar respublikamızda ayrı-ayrı sahələr üzrə çalışan şəxslərin, ziyalıların, ictimaiyyət nümayəndələrinin fikirlərini öyrənməyə çalışdıq.*

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun Gənclər təşkilatları və gənclərlə iş şöbəsinin müdiri ***Arzu Qasımov***: – Prezident İlham Əliyevin siyasi uğurları öz ifadəsini, hər şeydən əvvəl, dövlətin qüdrətinin artırılmasında, onun iqtisadiyyatının gücləndirilməsində tapır. XXI əsrin ilk onilliyində Azərbaycanın böyük yüksəliş iddiaları aydın görünməkdə idi. Bu milli iddiaların həyata keçirilməsi missiyasını öz üzərinə götürən Prezident İlham Əliyev aydın şəkildə dərk edirdi ki, Azərbaycanda yeni islahatlar artıq obyektiv zərurətə çevrilib. Dövrün tələblərinə cavab verən, müasir baxışlara əsaslanan islahatlar olmadan ölkə inkişaf iddialarını reallaşdırmaq imkanlarına malik deyildi. Prezident İlham Əliyevin islahatlar konsepsiyası məhz bu tarixi zərurətdən qaynaqlanır və həmin dövrün çağırışlarına cavab kimi qiymətləndirilməlidir.



Prezident İlham Əliyevin islahatçılıq strategiyası öz miqyası və vüsətinə görə kifayət qədər geniş olub, təkcə iqtisadi fəaliyyət sferası ilə kifayətlənmir, kompleks və sistemli xarakteri ilə diqqəti cəlb edir. Məhz hərtərəfli və dərin islahatlar sayəsində Azərbaycanın müasir siması formalaşıb. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan nəinki dünyanın ən dinamik iqtisadiyyatı kimi etiraf olundu, həm də qlobal miqyasda daha sürətlə və müasir dəyərlər çərçivəsində dəyişən ölkə imicini qazandı.

Bildiyimiz kimi, hazırda ölkəmizdə bütün bölgələrdə, bütün sahələrdə ciddi islahatlar gedir və islahatların da əsas məqsədi vətəndaş məmnunluğunu təmin etməkdir. Ölkəmizdə həyata keçirilən islahatlar Naxçıvan Muxtar Respublikasını da əhatə edir. Dekabrın 22-də Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Fərman imzalayıb. Fərmanla Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis edilib. Heç şübhəsiz ki, Naxçıvanda səlahiyyətli nümayəndə modeli dövlətçilik maraqları ilə yanaşı, həm də Naxçıvanda idarəetmə üsulunun səmərəliliyinin artırılmasına, region iqtisadiyyatının daha da inkişafına, islahatların sürətlə və uğurla həyata keçirilməsinə vəsilə olacaq, modern həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə keçidlə nəticələnəcək.

Bu gün Naxçıvan Muxtar Respublikası inkişafının yeni mərhələsinin astanasındadır. Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişafının ən yüksək dövrünü yaşayan müstəqil Azərbaycanın digər bölgələri kimi, Naxçıvan Muxtar Respublikasının da daha sürətli tərəqqisi üçün yeni imkanlar yaranmaqdadır. İnanırıq ki, gəncləri də yüksək perspektivlər gözləyir. Gənclər siyasətimizdəki yeni çağırış və hədəflər də nəzərə alınaraq qeyd etmək olar ki, bundan sonra dövlət və yerliözünüidarəetmə orqanlarının işində gənclərin daha fəal iştirakı təmin olunacaq, gənclərin beynəlxalq tədbirlərdə iştirakına yol açılacaq, gəncləri əhatə edən qeyri-hökumət təşkilatlarının sayı artacaq, məşğulluqları təmin ediləcək, beynəlxalq layihələrdə təmsilçilikləri artacaq, ölkənin hazırkı və perspektiv inkişaf istiqamətlərinə uyğun olan və əmək bazarının tələblərini ödəyən gənclər irəli çəkiləcəklər.

Son olaraq qeyd etmək istəyirəm ki, biz naxçıvanlıların daha böyük uğurlarımız və nailiyyətlərimiz isə hələ qarşıdadır. İnanıram ki, hər zaman olduğu kimi, bundan sonra da Prezidentin ətrafında sıx birləşməklə bütün gələcək uğurlarımıza şahidlik edəcəyik.



Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi, Azərbaycan Teatr Xadimləri İttifaqı və Jurnalistlər Birliyinin üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent ***Ələkbər Qasımov***: – Öz əməlləri ilə xalqının və dövlətinin sonsuz sevgisini qazanmış lider hər zaman xoşbəxtdir. Məsələyə bu aspektdən yanaşdıqda böyük qürur və fəxarət hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz İlham Əliyev xoşbəxt dövlət rəhbəridir. Xalq ona görə Prezidenti sevir ki, o, müasir Azərbaycan dövlətçiliyinin banisi Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa sadiqdir və ölkəmizə rəhbərlik etdiyi bu müddət ərzində respublikamızı uca zirvələrə yüksəltmiş, Vətənimizi qalib, müzəffər ölkə kimi dünyaya tanıtmışdır. Xalq ona görə Prezidentini sevir ki, o heç bir vaxt hər hansı böyük dövlət və ya beynəlxalq təşkilatın diktəsi ilə deyil, məhz lideri olduğu çoxmillətli və çoxkonfessiyalı Azərbaycan dövlətinin milli maraqlarından irəli gələn müstəqil siyasətin müəllifidir. Həmin siyasətin təntənəsi Azərbaycanın siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, uğurlu xarici siyasətində, xüsusilə də tarix yazan güclü ordusunda öz təsdiqini tapır. Bu səbəbdən xalqımız hər zaman ölkə rəhbərinin arxasındadır, onun qərarlarına sayğıyla yanaşır, ziyalılarımız, elm fədailərimiz ölkəmizin inkişafı üçün əlindən gələni edir və bundan sonra da edəcəkdir.

Dahi Ulu Öndərin Vətəni sayılan Naxçıvan Muxtar Respublikası hər zaman ölkə başçısının diqqətində olub, diyarımızın inkişafı üçün Prezident əlindən gələni əsirgəməyib. Ötən müddət ərzində Naxçıvanda baş verən hadisələr bir daha göstərdi ki, müzəffər lider nəyi nə zaman, harada və nə vaxt edəcəyini bilən güclü siyasətçidir. İstərdim, ötən illərdə Naxçıvanda baş verən hadisələrə, o cümlədən illərin müəyyən dövrlərində olub bitmiş proseslərə fikir bildirim, uzun illər öz sahəmlə əlaqədar müşahidə etdiyim prosesləri dilə gətirim.

Yaxşı xatırlayıram... Naxçıvan Dövlət Teatrının 125 illik yubileyi ilə bağlı ölkə başçısının müvafiq sərəncamı qəbul edilmişdi. Bilirik ki, teatr hər bir xalqın mədəni güzgüsü olmaqla bərabər həm də ədəbi sənət məktəbi, yaradıcılıq ocağıdır. Bu şərt daxilində Naxçıvanda teatrın tarixi ilə bağlı belə bir qərarın qəbul edilməsi sənət adamları daxil olmaqla bütün Naxçıvan ictimaiyyətini, ziyalıları sevindirdi. Sərəncamdan irəli gələn tapşırıqların icrası istiqamətində Naxçıvanda teatrın 125 illik yubileyi qeyd olundu. Lakin təəssüf hissi ilə deyirəm ki, keçirilən tədbir teatra yaraşan tərzdə deyil, tamam başqa bir aspektdə həyata keçirildi. Teatrın tarixini düzgün, müfəssəl işıqlandırmayan çıxış mətninin səslənməsinin ardınca Səməd Vurğunun “Fərhad və Şirin” tamaşası nümayiş olundu, bununla da yubileyin bədii hissəsi başa çatdı. Sanki bu tədbir 125 illik ədəbi sənət ocağının tarixi ilə bağlı deyil, Səməd Vurğunun yaradıcılığına həsr olunmuş konfrans idi. Düzdür, bu hadisə çox əvvəllər baş versə də, ölkəmizin tarixi taleyi baxımından mühüm hadisədir. Mən bütün sənət adamları adından arzu edirəm ki, növbəti il 140 illiyini qeyd edəcəyimiz Naxçıvan teatrının yubileyi ölkə incəsənətinə verdiyi töhfələrə layiq şəkildə keçirilsin. Vətənimizin milli-mənəvi dəyərləri gələcək nəsillərə miras qalsın. Bir məsələni də qeyd edim ki, biz teatrşünasları düşündürən bir nüans da Naxçıvan rejissorlarının uzun illər repertuar seçimində müstəqil olmaması, nəticədə, yalnız hansısa göstəriş əsasında bayağı mövzuların səhnəmizə yol tapması olub. İnanıram ki, bundan sonra rejissorlarımız daha aktual, tənqidi mövzulara müraciət edəcək ki, bu da cəmiyyətdəki müəyyən çatışmazlıqlarla, neqativ hallarla mübarizədə öz effektiv təsirini göstərəcək.

Toxunmaq istədiyim digər mövzu isə muxtar respublikamızdakı qədim memarlıq abidələrinin bərpası istiqamətində görülən işlərlə bağlıdır. Hər bir xalqın, ölkənin tarixini, milli-mənəvi dəyərlərini işıqlandırmaq baxımından memarlıq abidələrinin rolu əvəzsizdir. Bu tarixin bütün dövrlərində belə olub. Azərbaycan torpağında yaşayıb-yaratmış böyük memarlar bu yurdun simvoluna çevriləcək əsrarəngiz sənət əsərləri ərsəyə gətirmiş, onu gələcək nəsillərə miras buraxmışlar. Onların bu xidməti qarşılığında milli dəyərlərimizi, tarixi abidələrimizi qorumaq hər birimizin borcudur. Təbii ki, ölkəmizdə, eləcə də muxtar respublikamızda bu istiqamətdə icra olunan işləri aidiyyəti qurumlar həyata keçirir. Lakin abidələrin bərpadan sonrakı mənzərəsinə nəzər saldıqda gördüklərimiz tamam başqa təəssürat bağışlayır. Düşünürsən ki, yeni boya iyinin hiss olunduğu abidələr sanki əsrlərin yadigarı deyil, müasir zamanın yaratdığı sənət əsərləridir. Lakin dünya təcrübəsinə nəzər salsaq, görərik ki, qədim Roma mədəniyyətinin dünyaya ərmağan buraxdığı “Kolizey” amfiteatrı ilk yarandığı kimi də qalmaqdadır. Baxmayaraq ki, Roma dövləti abidəni bərpa etmək qüdrətindədir, ancaq abidənin ilkin görünüşündə, olduğu kimi insanlara, turistlərə təqdim edilməsi tarixi yaşatmaq baxımından daha mühüm sayılmaqdadır. İnanıram ki, diyarımızda bu vaxta qədər olmuş maddi mədəniyyət nümunələrinə təəssübkeşlik bundan sonra daha diqqətli və həssas şəkildə davam edəcək, Naxçıvan Muxtar Respublikası dövlət başçısının ideyalarına sadiq qalaraq daha da çiçəklənəcək.

Naxçıvan Dövlət Uşaq Teatrının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti ***Tofiq Seyidov***: – Uzun illər teatr, mədəniyyət sahəsində çalışan biri kimi Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyinin təsis olunmasını rəğbətlə qarşılayıram. İnanıram ki, ölkə rəhbərinin bu mütərəqqi addımı yaxın gələcəkdə muxtar respublikamızda bütün sahələrdə köklü islahatlara, düzgün kadr siyasətinin aparılmasına səbəb olacaq.



Teatr ən qədim zamanlardan insanların mənəvi tələbatını ödəyən ən təsirli maarifləndirmə vasitəsi kimi mühüm rol oynayıb. Zamanla kino sahəsi nə qədər inkişaf edib ön plana keçməyə çalışsa da, tamaşaçı ilə canlı, əyani bağlılığı olan teatr öz aktuallığını indiyədək saxlayıb. Hamımız gözəl bilirik ki, Azərbaycan köklü mədəniyyətə malikdir, Şərq aləmində ilk teatr məhz ölkəmizdə yaradılıb. Bu gün də ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində mədəni irsimiz ən yüksək səviyyədə qorunub yaşadılır, teatr sahəsi təkmilləşir, formalaşır, birbirindən maraqlı səhnə əsərləri tamaşaçılarımızın zövqünü oxşayır. Muxtar respublikamızda da teatr ötən illər ərzində inkişaf yolu keçib, teatrlarımız üçün müasir binalar tikilib istifadəyə verilib, rejissor, aktyor heyətinin səmərəli fəaliyyəti üçün lazımi avadanlıqlarla təchiz olunub. Lakin təəssüf ki, əvvəllər bizdən asılı olmayan səbəblər üzündən bir sıra mənfi nüanslar da yox deyildi. Bu baxımdan uzun illərdir, rəhbərlik etdiyim Naxçıvan Dövlət Uşaq Teatrının timsalında bir məsələyə diqqət çəkmək istərdim. Mədəniyyət xadimləri də fikrimi təsdiqləyərlər ki, bir teatr dövlət adını daşıyırsa, yəni dövlət teatrı statusundadırsa, orada mütləq şəkildə aktyor ştatları mövcud olmalıdır. Ölkəmizdə fəaliyyət göstərən digər dövlət teatrlarını buna nümunə göstərmək olar. Misal üçün Bakı Uşaq və Gənclər Teatrının 64 ştatda işçisi vardır ki, onun yarısı aktyordur. Ancaq təəssüfedici məqamdır ki, 2006-cı ildə Naxçıvan Dövlət Uşaq Teatrı yaradılanda bu hal nəzərə alınmayıb və bu günə qədər də ancaq həvəskar şagirdlərdən ibarət özfəaliyyət qrupu kimi səhnə əsərləri hazırlamağa çalışmışıq. Təbii ki, dediyim bu mənfi amilə görə tələb olunan nəticəni əldə etmək, gözləntiləri doğrultmaq mümkünsüz idi. Çünki məktəb yaşlı uşaq teatra ancaq öyrənmək, kiçik təcrübə qazanmaq üçün gələ, müraciət edə bilər, ancaq o, püxtələşmiş aktyor səviyyəsində rol canlandıra bilməz. Digər yandan da şagirdi istənilən vaxt teatra gətirib rol oynamağa məcbur etmək də olmaz. Məhz Naxçıvan Dövlət Uşaq Teatrında aktyor ştatının olmaması ötən illərdə istədiyimiz nəticəni qazanmağa imkan vermirdi. Bizi narahat edən başqa bir nüans isə repertuar seçimi ilə bağlı idi. Yəni biz teatr kollektivi olaraq tamaşaçıların zövqünə uyğun əsərlər səhnələşdirməyə çalışsaq da, onların bəzilərini hazırlamağa imkan verilmirdi, mövzu seçimində məhdudiyyətlər qoyulurdu. Bütün bunlar bizi qismən sarsıtsa da, tam şəkildə ruhdan salmır, yeni aktyor nəslinin formalaşması üçün səylərimizi əsirgəmirdik.

Tofiq Seyidov ümidvar olduğunu bildirdi ki, muxtar respublikamızda aparılan islahatlar nəticəsində teatrlarımız da böyük inkişaf yoluna qədəm qoyacaq. Bir səhnə adamı, quruluşçu rejissor kimi gələcəkdə ən böyük istəklərimdən biri də Naxçıvanda gənclərlə bağlı teatrın yaradılmasına nail olmaqdır. Əminəm ki, ölkə başçısının apardığı islahatlar, mədəniyyətimizin inkişafı yönündə həyata keçirdiyi işlər biz teatr insanlarına, ən əsası da gənc tamaşaçılara bu imkanı verəcək. Fürsətdən istifadə edib kadr siyasətinin düzgün təkmilləşdirilməsinə, sosial-iqtisadi, mədəni inkişafa xidmət edəcək bu əlamətdar tarixi hadisəyə görə Prezidentimizə öz dərin minnətdarlığımı bildirir, gedən dəyişiklik proseslərinin xalqımız, dövlətimiz üçün xeyirli-uğurlu olmasını diləyirəm.

*Müsahibələrdən də göründüyü kimi, Naxçıvan ictimaiyyətinin tanınmış nümayəndələri, ziyalılar da ölkə Prezidentinin muxtar respublikada dövlət idarəçiliyi sahəsində apardığı islahatları, struktur dəyişikliyini rəğbətlə alqışlayır. Əminliklə demək olar ki, tarixin bütün dönəmlərində olduğu kimi, bu gün də naxçıvanlılar dövlətinin, rəhbərinin yanındadır, hər kəs öz əməli işi, mənəvi dəstəyi ilə bu dəyişiklik proseslərini uğurla, nailiyyətlə başa vurmaq, böyük inkişaf yoluna qədəm qoymaq üçün əlindən gələni əsirgəməyəcək.*

**Nail ƏSGƏROV**
**Güntac ŞAHMƏMMƏDLİ**
**Məcid RƏŞADƏTOĞLU**

## “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanun muxtar respublikada uğurla icra olunur



Ölkəmizdə həyata keçirilən sosialyönümlü siyasət nəticəsində sosial sahənin bütün istiqamətlərində mühüm addımların atılmasına, o cümlədən pensiya təminatının ildən-ilə gücləndirilməsinə nail olunub. Əmək pensiyaçılarının rifah halının yaxşılaşdırılması, bu məqsədlə pensiyaların artırılması sahəsində həyata keçirilən islahatlar xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Qanun da pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən növbəti addımdır və pensiya sistemində yeni islahat mərhələsi olaraq pensiya artımında vahid indeksasiya metoduna keçidi təmin edir.

Qanunda edilmiş dəyişikliyə əsasən qulluq stajına görə əlavə alan pensiyaçıların, yəni hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin, dövlət qulluqçularının və digər aidiyyəti şəxslərin pensiyaları əgər bu vaxta qədər onların işləmiş olduqları sahələrdə əməkhaqqı artımı olduqda artırdısa, bundan sonra həmin pensiyaçıların pensiyaları da digər pensiyalar kimi hər ilin əvvəlində indeksləşdirilərək artırılacaqdır. Nəticədə, həmin şəxslərin pensiyalarında da hər il artım baş verəcəkdir.

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” 2022-ci il 8 fevral tarixli Sərəncamına əsasən ümumi əsaslarla pensiya təyin edilmiş şəxslərə rüb ərzində 50 manat məbləğində, ümumilikdə, il ərzində 200 manat olmaqla maddi yardım ödənilmişdir. Həmin şəxslərə ödənilən maddi yardımın bir aya düşən məbləği, yəni 16,67 manat məbləğindəki vəsait 2023-cü il yanvarın 1-dən onların pensiyalarının tərkibinə daxil ediləcəkdir. Bundan başqa, ölkə başçısının “Əmək pensiyasına qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarının sosial müdafiəsi sahəsində əlavə tədbirlər haqqında” 2022-ci il 4 mart tarixli Sərəncamına əsasən 2022-ci il yanvarın 1-dək pensiya təyin edilmiş qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına 2022-ci ildə aylıq əmək pensiyası məbləğinin 10 faizi məbləğində aylıq maddi yardım ödənilmişdir. Həmin şəxslərə də ödənilən maddi yardım pensiyalarının tərkibinə daxil ediləcəkdir. Bundan sonra yekun pensiya məbləğləri 2022-ci il üzrə ortaaylıq nominal əməkhaqqının illik artım tempinə uyğun indeksləşdirilib artırılacaqdır.

Pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi sahəsində Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman və sərəncamların muxtar respublikada operativ icra olunması üçün Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən müvafiq tədbirlər görülür. Belə ki, muxtar respublikada 43 min pensiyaçı vardır ki, bunların da 4 min nəfəri qulluq stajına görə əlavə alanlardır. Onların da pensiyası fond tərəfindən gələn ilin əvvəlində digər pensiyaçılar kimi indeksləşdirilərək artırılacaqdır. Bununla da bütün növ pensiyaların indeksləşdirilərək artırılmasında gələn ilin əvvəlindən bərabər yanaşmaya keçid təmin ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## *“Azərbaycan pedaqoji elmi: ustadlar, davamçılar, iddiaçılar”* adlı layihəyə start verilib





*Naxçıvan Müəllimlər İnstitutunda Pedaqogika və psixologiya kafedrasının təşkilatçılığı ilə “Azərbaycan pedaqoji elmi: ustadlar, davamçılar, iddiaçılar” adlı layihəyə start verilib.*

Layihənin keçirilməsində məqsəd gənc pedaqoqların pedaqogika elminin müasir nümayəndələrinin həyat və elmi-pedaqoji fəaliyyətləri haqqında məlumatlar əldə etməsi ilə yanaşı, davamçıların dilindən öz ustadlarının həyatı və elmi-pedaqoji fəaliyyətləri haqqında ətraflı məlumat verməklə nəsillər arasında əlaqəni təmin etməkdir.

Layihə çərçivəsində iddiaçılar – Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Gülmira Hacıyevanın rəhbərlik etdiyi “Gənc pedaqoqlar” dərnəyinin üzvləri, davamçılar – Azərbaycan pedaqoji elminin müasir nümayəndələri, ustadlar isə Azərbaycan pedaqoji elminin görkəmli nümayəndələridir.

Layihənin ilk tədbirində institutun rektoru Azad Novruzov çıxış edərək layihənin mahiyyəti və gənc pedaqoqların formalaşmasındakı təsir imkanlarından danışıb, layihənin işinə uğurlar arzulayıb.

İnstitutun Pedaqogika və psixologiya kafedrasının müdiri İsmayıl Əliyev bildirib ki, Gənc pedaqoqlar dərnəyinin bir sıra istiqamətlərdə fəaliyyəti nəzərdə tutulub ki, onlardan biri də bu gün reallaşan layihədir. Sevindirici haldır ki, layihənin iddiaçıları olan gənclərimiz bu layihədə olduqca həvəs və maraqla iştirak edir. Professor vurğulayıb ki, bu, gələcəkdə pedaqogika elminin dərinliklərinə yiyələnəcək gənc pedaqoqların formalaşması üçün əsas amillərdən hesab edilməlidir.

Layihənin ilk qonaqları davamçılar olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin dekanı, pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmov və Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının müdiri, pedaqoji elmlər doktoru professor Ləzifə Qasımova olub.

Gənc pedaqoqlar dərnəyinin üzvləri İbtidai sinif müəllimliyi ixtisası üzrə IV kurs tələbələri Əlizadə Səriyyə və Türkay Bayramova professorların elmi-pedaqoji fəaliyyəti haqqında, davamçılar isə öz ustadları olan Azərbaycan pedaqogika elminin atası, professor Əhməd Seyidov və pedaqoji elmlər doktoru, professor Nurəddin Kazımovun həyat və elmi-pedaqoji fəaliyyətləri haqqında dərnək üzvlərinə məlumat veriblər.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Bayram şənliyi keçirilib



*“Naxçıvan” Universitetində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilə həsr olunmuş bayram şənliyi keçirilib. Azərbaycan Respublikasının Dövlət Himni ilə başlanan şənlikdə universitetin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.*

Universitetin rektoru, dosent Nurlana Əliyeva tədbir iştirakçılarını 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb. Rektor bu əlamətdar tarixin qeyd olunmasında Ümummilli Lider Heydər Əliyevin xidmətlərindən danışaraq bildirib ki, Ulu Öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra müstəqil Azərbaycan Respublikası dünya azərbaycanlılarının mənafe və maraqlarının təminatçısı olduğunu bəyan edib, xaricdə yaşayan azərbaycanlılarla məqsədyönlü iş aparılmağa başlanılıb. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi artıq bütün dünya azərbaycanlıları üçün zərurətə və mənəvi tələbata çevrilib.

Nurlana Əliyeva diqqətə çatdırıb ki, artıq iki ildir ki, Milli Həmrəylik Günü tamamilə fərqli, daha yüksək əhvali-ruhiyyə ilə qarşılanır. Çünki torpaqlarımızın işğaldan azad olunması həm də milli həmrəyliyimizin təntənəsi, xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsinin təcəssümü olub. 2020-ci il sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Ali Baş Komandan, Prezident İlham Əliyevin çağırışı ilə Vətən müharibəsinə qalxıb. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğradıb və ölkəmizin ərazi bütövlüyünü bərpa edib. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyəti sayəsində əldə edilib. Vətən müharibəsində dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar da yüksək dərəcədə fəallıq göstəriblər, daha sıx birləşiblər. Belə ki, Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin məkrli təxribatlarına qarşı etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Zəfərimizə layiqli töhfə olub. Vətən müharibəsi xalqımızın mübarizliyini bütün dünyaya nümayiş etdirib. Eyni zamanda bu savaşda xalqımız İlham Əliyevin rəhbərliyi ilə milli həmrəyliyin ən mükəmməl nümunəsini yaradıb.

Rektor ölkəmiz haqqında obyektiv məlumatların yayılması, dövlət və milli maraqların qorunması istiqamətində görülən işlərə diqqət çəkərək xalqımızın parlaq gələcəyinə əminliyini vurğulayıb.

Şənlik bədii hissə ilə davam edib. İstedadlı tələbələrin ifasında müxtəlif rəqslər, musiqi nömrələri nümayiş olunub.

Yekunda universitetin rektoru Nurlana Əliyeva universitetin ictimai həyatında fəal iştirak edən tələbə və müəllimlərə göstərdikləri xidmətə görə təşəkkür edib.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

Naxçıvan Dövlət Universitetinin 55 illiyi münasibətilə ali təhsil ocağında “Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu” mövzusunda beynəlxalq simpozium keçirilib. Naxçıvan Dövlət Universiteti, İstanbul Texniki Universiteti, Düzcə Universitetinin birgə təşkilatçılığı ilə keçirilən simpoziumda çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev qonaqları salamlayıb, müasir təhsil sistemi və innovasiyalar sahəsində belə bir simpoziuma ev sahibliyi etməkdən xüsusilə

## *“ Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu”* mövzusunda beynəlxalq simpozium



məmnunluğunu ifadə edib. Qeyd olunub ki, “Yüksək Texnologiyalar Parkı” innovasiyalı iqtisadiyyatın inkişafına, biliklərə əsaslanan iqtisadiyyatın qurulmasına, intellektual biznesin dəstəklənməsinə, iqtisadiyyatımızın və xüsusilə İKT sektorunun rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə, milli məhsulların dünya bazarlarında layiqli yer tutmasına, xarici investisiyaların cəlb edilməsinə və insan resurslarının inkişafına öz töhfəsini verir. Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti



İlham Əliyevin 2011-ci il noyabrın 29-da “Azərbaycan-2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasının hazırlanması ilə bağlı verdiyi tarixi sərəncam ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasının başlanğıcı olub. Bu konsepsiya ölkə həyatının bütün sahələrində, o cümlədən informasiya-kommunikasiya texnologiyaları sahəsində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edir. “Yüksək Texnologiyalar Parkı”nın əsas məqsədi İKT sektoru üzrə elm və istehsal sahələri arasında bir körpü yaratmaqdır.

Elbrus İsayev vurğulayıb ki, rəhbərlik etdiyi ali təhsil ocağında 2020-ci ildən etibarən Texnologiyalar Parkının təməli qoyulub. Diqqətə çatdırılıb ki, ali təhsil ocağı Texnoparkın yaradılması üçün qardaş Türkiyənin bu sahədə təcrübəsindən yararlanıb. “Ölkə Prezidentinin təhsil strategiyası ali təhsil sistemimiz üçün prioritet istiqamətdir”, – deyən rektor bunu ali təhsil müəssisələrini inkişaf etdirməyin əsası adlandırıb. Qurulan texnoparkın gələcəkdə ölkəmizdəki ali təhsil müəssisələri ilə beynəlxalq şirkətlər və xarici universitetlərlə əlaqələr qurulması baxımından mühüm başlanğıc olaraq dəyərləndirilib. Rektor Türkiyənin nüfuzlu universitetləri ilə Texnopark sahəsində qurulan əməkdaşlıq məsələlərindən danışıb və göstərilən dəstəyə görə xüsusilə minnətdarlıq edib.

Simpoziuma onlayn qoşulan İstanbul Texniki Universitetinin prorektoru, professor Bülənt Güloğlu qeyd edib ki, 250 illik tarixə malik dünyanın mühəndis hazırlayan ilk ali təhsil ocağı Türkiyənin nüfuzlu ali təhsil müəssisələri arasında ön sıralarda dayanıb. Vurğulanıb ki, İstanbul Texniki Universiteti geniş beynəlxalq əlaqələri sayəsində yalnız ölkə daxilində deyil, beynəlxalq mühitdə də qabaqcıl tələbələr yetişdirən dövlət ali məktəbidir. Hazırda bu universitetdə 13 fakültə, fakültələr daxilində 39 bölmə və 6 institut fəaliyyət göstərir. Universitetin nəzdində fəaliyyət göstərən texnoparkların bir çox beynəlxalq mükafatlar qazandığını bildirən prorektor diqqətə çatdırıb ki, texnoparkların ən üstün cəhəti texnologiyanı izləmək və rəqəmsal biliklər tətbiq etməkdir.

Simpoziuma Düzcə Universitetinin prorektoru, professor İlhan Gənç onlayn çıxışı zamanı bildirib ki, 2006-cı ildə qurulan və qısa müddətdə böyük akademik uğurlara imza atan bu ali təhsil ocağı keyfiyyətli təhsil və təlim fəaliyyətləri, dəyərli elmi araşdırmalar, sosial məsuliyyət və regional inkişaf sahələrindəki səyləri ilə lider mövqedə dayanır.

Simpoziumda onlayn çıxış edən İstanbul Texniki Universiteti ARI Texnologiyalar Parkının müdiri, dosent Dəniz Tunçalp vurğulayıb ki, dünyanın ən yaxşı texnoparklarından sayılan ARI Texnoparkı 2002-ci ildə qurulub. Bildirilib ki, texnopark 300-dən artıq şirkət və 9000-ə yaxın şəxsi heyətlə çalışır. Universitetin nəzdində fəaliyyət göstərən şirkətlər haqqında ətraflı məlumat verən Dəniz Tunçalp İTÜ Çekirdek İnkubasiya Mərkəzi barədə danışıb. Diqqətə çatdırılıb ki, dünyanın 35-dən çox ölkəsindən və Türkiyənin hər yerindən 50 mindən çox müraciət alan İTU Çekirdek bu günədək 4040-dan çox startap və 9000-dən çox müəssisəyə dəstək verib.

Simpoziumda iştirak edən Düzcə Universiteti Texnologiyalar Parkının müdiri, dosent Özkan Şahin qeyd edib ki, Times Higher Education sıralamasında ölkə universitetləri sırasında öz birinciliyini qoruyan bu ali məktəbin Texnoparkı 2010-cu ildə yaradılıb. Qonaq slaydlar vasitəsilə texnoparklar və onların qurulması ətrafında çıxış edib.

Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və maliyyə kafedrasının müdiri, professor Teymur Abbasov texnoparkların təhsildə və iqtisadi inkişafda rolundan danışıb.

Universitetin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı Əşrəf Ələkbərov bilik iqtisadiyyatının insan kapitalının formalaşdırılmasının əsas məsələlərdən biri hesab edilməsi, müasir dövrdə bu istiqamətdə ölkəmizdə həyata keçirilən islahatlar barədə məlumat verib.

Düzcə Universiteti Texnologiyalar Parkının müdiri, dosent Özkan Şahin, Düzcə Universiteti Texnologiyalar Parkının biznesin inkişafı üzrə koordinatoru Ayşə Nur Atakav mövzu ilə əlaqədar çıxış edib, müəllim və tələbələrin suallarını cavablandırıblar.

Simpoziumda və bölmə iclaslarında 50-dən çox çıxışlar dinlənilib.

İki gün davam edən simpozium çərçivəsində qonaqlar universitet ərazisini gəzib, tikilməkdə olan Texnopark binasında, Media Mərkəzində olublar.

**Səadət ƏLİYEVA**

*Müasir dövrün sürətlə dəyişən situasiyaları və yeni çağırışları fonunda ölkəmizin inkişaf prioritetləri arasında Qarabağı yenidən dirçəltmək və Cənubi Qafqazda davamlı sülhün bərqərar olunması kimi mühüm vəzifələr qarşıda durmaqdadır. Otuz ilə yaxın bir müddətdə davam etmiş mənfur erməni işğalına son qoymuş Vətən müharibəsindən sonra Qarabağdakı dağıntıların bərpası və quruculuq istiqamətində qətiyyətlə davam etdirilən işlər gələcəkdə mühüm sektor olan turizmin də müxtəlif növləri üzrə layihələrin həyata keçirilməsinə imkan yaradacaq.*

Turizm

# Naxçıvan və Qarabağın yenidən inteqrasiyası ölkəmizdə turizmin inkişafına geniş imkanlar açacaq

Qarşıdakı dövrdə Qarabağda turizmin inkişafı məsələləri bu qədim Azərbaycan torpağının yenidən dirçəldilməsi qədər əhəmiyyətli bir proses olacaqdır. Belə ki, işğal altında qalaraq erməni vandalizminin qurbanı olmuş və tamamilə dağıdılmış ərazilərimizin öz əvvəlki görkəminə qayıtması üçün yüz milyardlarla dollar vəsait və uzun müddət vaxt tələb olunacaqdır. Şübhəsiz, bu proseslərdə Qarabağ bölgəsində turizmin inkişafı da prioritet olacaqdır, çünki turizm özünün mühüm funksiyaları ilə istər regional inkişafa, istər sosial-humanitar sahəyə, istərsə də ölkələrarası sülh münasibətlərinin tənzimlənməsinə verdiyi töhfələrlə dünya təcrübəsində öz təsdiqini tapmışdır. Məhz bu baxımdan son illərdə bölgəmizdə baş verən bütün hadisələrin təhlili onu göstərir ki, Qarabağda turizmin inkişafı ilə ölkəmiz gələcəkdə iqtisadi və geostrateji sahədə arzuedilən məqsədlərə çatmaq üçün mühüm fürsətlər qazanacaqdır. Belə ki, bu həm də uzun illər ərzində təkcə Qarabağın deyil, həm də ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının da birbaşa olaraq böyük Vətənimizin digər bölgələri arasında turizm marşrutlarının yaradılması ilə mümkün olacaqdır. Bununla da istər ötən XX əsrdə, istərsə də ondan əvvəlki dövrlərdə bir-biri ilə sıx əlaqələri olmuş bu iki mühüm bölgəmizin turizm potensialının yenidən bir-birinə inteqrasiyası nəticəsində turizm-rekreasiya təsərrüfatının inkişafı ilə yanaşı, yuxarıda qeyd etdiyimiz bir sıra digər müsbət nəticələrin əldə olunması mümkündür.


Gorus – Tatev Alban kilsəsi

Naxçıvanla Qarabağ regionunun yeni iqtisadi əlaqələrində turizmin arxazəmininə baxdıqda qeyd edə bilərik ki, keçmiş SSRİ dövründə Naxçıvan kapitalist dövlətləri ilə sərhədyanı bir ərazi olduğu üçün bura turistlərin hərəkəti məhdudlaşdırılsa da, tam əksinə, Qarabağa həm yerli, həm də əcnəbi turistlərin səfərləri olmuş, Qarabağ işğaldan əvvəl ölkəmizin paytaxtından sonra ən çox turist qəbul etmiş bölgə olmuşdur. Hazırda isə vəziyyət tam dəyişilmiş, Naxçıvan və Qarabağ ölkəmizin 7 turizm bölgəsi arasında cazibədarlığına görə mühüm yer tutur.


Qarakilsə – Şəki şəlaləsi

Ayrıca olaraq qeyd etmək lazımdır ki, ölkəmizin bu iki tarixi bölgəsi son ikiyüzillik bir dövrdə baş vermiş tarixi proseslərdə diqqət mərkəzində olmuş, Naxçıvan və Qarabağ sakinləri Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından keçən iki yüz ilə yaxın bir müddətdə yaşadıqları haqsızlıqlar və mübarizələri baxımından bənzər taleyi bölüşən insanlar olmuşlar. Yaxın tarixə baxsaq görərik ki, Naxçıvan və Qarabağ bölgələri bir-birindən fiziki olaraq hələ ki ayrı olsalar da, otuz il əvvələ qədərki keçən yüzilliklərboyu çox sıx əlaqələri olan iki bölgə kimi tanınmışdır. Bu, tarixi torpaqlarımız olan Zəngəzurla hər iki bölgənin həm tarixi-coğrafi, həm də iqtisadi-mədəni əlaqələrində mövcud olmuş, bu gün də yerli əhalinin yaddaşlarında yaşadılan adət-ənənələrin köklərində açıqca görünməkdədir.


Əlincə qalası

Bu isə Cənubi Qafqazın mühüm nəqliyyat-kommunikasiya dəhlizləri üzərindəki Qarabağ və Naxçıvan bölgələri hələ yüz illər əvvəl tarixi İpək Yolunun əsas marşrutlarından biri olmuş, bu gün də Naxçıvanla həmsərhəd olan qardaş ölkə Türkiyənin artan təsiri bu potensialı daha da gücləndirməkdədir. İki bölgənin turizm ehtiyatlarına baxdıqda görürük ki, təbii-iqlim şərtləri müxtəlif olsa da, Naxçıvanla Qarabağın təbii turizm ehtiyatlarının, xüsusən müalicə-sağlamlıq və dağ-relyef gözəllikləri kimi ehtiyatlar baxımından bir-birinə bənzərliyi çoxdur. Bundan əlavə, Naxçıvan və Qarabağ bölgələri turist marağını cəlb edən tarixi-mədəni zənginlikləri ilə də bir-birini tamamlayan bölgələrimizdir. Turizm cazibəsi baxımından isə xüsusi olaraq qeyd etmək lazımdır ki, Naxçıvan və Qarabağ bölgələrinin hər cür tarixi-mədəni turizm ehtiyatları Qərbi Zəngəzurun ərazisində qalmış mədəni sərvətlərimizin elementlərini də özündə yaşadan unikal nümunələrə sahibdir.

Şübhəsiz, bu iki bölgəmizin turizm baxımından bir-birinə reinteqrasiyası üçün hər cür imkanların və ilkin şərtlərin mövcud olmasına baxmayaraq, otuz ilə yaxın bir müddətdə işğal altında qalaraq tamamilə dağıdılmış Qarabağın mövcud durumu və onun bu müddət ərzində blokadaya alınmış Naxçıvanla birbaşa quru əlaqələrinin olmaması kimi mənfi faktorları da qeyd etmək lazımdır.

Naxçıvan və Qarabağ bölgələrinin turizm reinteqrasiyasında gələcəkdə turizm marşrutlarının yaranması və onların nə dərəcədə populyarlıq qazanması və təkcə yerli deyil, həm də beynəlxalq marşrutlar kimi əhəmiyyət qazanmasını düşünməkdə fayda vardır. Belə ki, hazırda Naxçıvanda 6 əsas, 10-dan artıq əlavə yerli turizm marşrutu vardır. Bu marşrutların əksəriyyəti ölkəmizin müstəqillik illərində formalaşmış və hazırda Naxçıvana gələn yerli və əcnəbi turistlər tərəfindən seçilərək istifadə olunur. İndi Naxçıvanın 4 giriş qapısından (Naxçıvan Beynəlxalq Hava Limanı, Sədərək, Culfa və Şahtaxtı gömrük-keçid məntəqələri) daxil olan turistlər səyahətlərini tamamladıqdan sonra normal şərtlərdə müddət və məqsədlərinə görə ya gəldikləri marşrutla geri qayıda, ya da digər istiqamətdə davam edə bilirlər. Burada gələcəkdə Zəngəzur koridorunun açılması ilə yaranacaq yeni imkanları nəzərə alsaq, artıq Naxçıvandan bir neçə saatlıq quru yol ilə turistlərin Zəngilan və ya Füzuli Beynəlxalq Hava limanlarına qədər çatması, yaxud buradan Qarabağın yeni açılacaq turizm marşrutlarına inteqrasiyası mümkün olacaqdır.


Gorus – Daş meşə

Gələcəkdə Qarabağda turizmin inkişafı üçün mövcud perspektivlərə nəzər saldıqda, görürük ki, keçmişdə Qarabağ turizm bölgəsində mövcud olmuş, əsasən, ənənəvi kurort-sanatoriya, ekoturizm və tanışlıq turizmi növləri ilə yanaşı, hazırda bir sıra yeni turizm növlərinin də tətbiqinə imkanlar yaranmışdır. Bu, dünya üzrə turistlərin yeni tələbatlarının yaranması ilə yanaşı, Qarabağın işğaldan azad olunmasından sonra yaranmış yeni vəziyyətlə də əlaqədardır. Belə ki, Qarabağın unikal təbiət imkanları burada passiv kurort turizmindən başqa, dağ yürüşləri, fotoovçuluq, raftinq, ekstrim kimi aktiv turizm növlərinin də inkişafına şərait yaradır. Qarabağda yaradılacaq olan smart yaşayış kompleksləri və Füzuli, Zəngilan Beynəlxalq Hava limanları ilə birlikdə nəqliyyat kommunikasiya şəbəkəsi burada paytaxt Bakıya gəlmədən birbaşa olaraq daha çox ölkədən turist qəbuluna imkan yaradacaq. Dünyaya daha çox elit turist göndərən ölkələrin vətəndaşlarının Qarabağa kütləvi səfərlərinin təşkili bu baxımdan gələcək vəzifələrdəndir.


Əshabi-Kəhf ziyarətgahı

Şuşanın ölkəmizin Mədəniyyət Paytaxtı kimi mötəbər bir status qazanması gələcəkdə burada keçiriləcək festival və digər kütləvi mədəni tədbirlərin də turizm dövriyyəsinə qazandırılmasına imkan verəcəkdir.


Şuşa şəhəri

Qarşıdakı dövr Qarabağın sahib olduğu tarixi-mədəni zənginliklərin onun əsl sahibinin öz kimliyi ilə dünyaya tanıdılması, həmçinin dağıdılmış sərvətlərimizə və istifadə olunmayan imkanlara görə Ermənistanın ödəməli olduğu təzminat baxımından əhəmiyyətli bir dövr olacaq. Söhbət uzun illər ərzində xain qonşularımızın saxta təbliğatla az qala bütün dünyaya yaya bildikləri yalanlarının, revanşizm xəyallarının ifşa olunması və mədəni dünyanın əsl gerçəkliklərlə tanış olmasından gedir.


Batabat yaylağı

Qarşıdakı dövrdə Qarabağda turizmin inkişafının mühüm istiqamətlərindən biri bölgənin, xüsusən də Şuşa şəhərinin bütün Türk dünyasının bir mədəniyyət mərkəzi halına gətirilməklə cazibəsinin daha da artırılması olacaqdır. Qardaş Türkiyədən qardaş Qırğızıstana qədər hazırkı durumda bütün Türkdilli ölkələrin ən güclü ittifaqlara malik olmasında, şübhəsiz, ölkəmizin Qarabağ Zəfərinin düşərli olmasını bu gün açıqca görməkdəyik. Bütün bunların fonunda hələ 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının Naxçıvan Sammitinin nə qədər əhəmiyyət daşıdığını, burada daha da möhkəmlənən mənəvi qardaşlıq bağlarının nə qədər sağlam olduğunu bir daha görməkdəyik.

Və şübhəsiz ki, gələcəkdə Zəngəzur dəhlizinin açılması və onun tranzit imkanlarının genişləndirilməsi ilə Qarabağın turizm potensialının təkcə Naxçıvanla deyil, eləcə də bütün Türk dünyası ilə reinteqrasiyası da sözügedən məsələ kimi uzun müddət gündəmdə qalacaqdır. Bütün bunların gerçəkləşməsi ilə ölkəmizin turizm bazarında yeni bir potensial yaranacaq, yeni turizm marşrutları və yeni turizm növlərinin tətbiqi mümkün olacaq, təbii ehtiyatların mühafizə olunması və bu sahədə dayanıqlılıq prinsiplərinə əməl olunmasına əlverişli zəmin formalaşacaq.

Məsələnin geostrateji əhəmiyyətinə baxdıqda isə görürük ki, yaranacaq turizm əlaqələri gələcəkdə Zəngəzur dəhlizi üzərində ola biləcək təzyiqləri minimumlaşdırmaqla, hərtərəfli əməkdaşlıq perspektivlərinin artmasına da töhfə verəcəkdir. Qarabağın turizm potensialından istifadə, onun Zəngəzur dəhlizi vasitəsilə Naxçıvanla sıx turizm əlaqələrinin formalaşması nəticəsində yaranan humanitar iqlim isə UNESCO kimi bu sahə üzrə ixtisaslaşmış beynəlxalq təşkilatların ölkəmizə marağının daha da artmasına və onların ikili standartlardan əl çəkib ölkəmizə qarşı daha ədalətli münasibət göstərməsinə səbəb olacaqdır.

✍ Əli CABBAROV

# İlin hər fəslində yerli məhsullar süfrələrimizi bəzəyir

*Günlər həftələri, həftələr ayları əvəz edir və bir də görürük ki, artıq bir ili başa vurmuşuq. Köhnə ili necə yola salsan, yeni ili də elə qarşılayarsan deyiblər. Yurdumuzun insanları digər bayramlar kimi, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramını da sevinclə qarşılayır. Yeni il bayramı münasibətilə Naxçıvan şəhərindəki Mərkəzi Bazarda təşkil olunan kənd təsərrüfatı və sənaye məhsullarının satış yarmarkasının elə ilk günündə buraya gələnlərin ardı-arası kəsilmirdi. Sakinlər keyfiyyəti ilə seçilən yerli məhsulları buradan münasib qiymətə ala bilirlər. Burada istehlakçılara kənd təsərrüfatı məhsulları ilə yanaşı, digər ərzaq malları da təklif olunur. Yarmarkanın təşkilində məqsəd şəhər əhalisinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatının daha dolğun ödənilməsi, istehlakçıların seçim imkanlarının artırılması, süni qiymət artımının qarşısının alınmasından ibarətdir.*



İstirahət günü olmasından istifadə edib həm ziyarət, həm ticarət, – deyib satıcı və alıcılarla həmsöhbət oluruq. Muxtar respublikanın ən böyük bölgəsi olan Şərur rayonunun Çərçiboğan kənd sakini, ailə təsərrüfatçısı ***Muqbil Zamanov***un dediklərindən:

– Əkin sahələrindən əldə etdiyim məhsuldan gülab, araq, gül şirəsi hazırlayıram. Bu yarmarkaya da həmin məhsullarla bərabər, həyətimizdə saxladığımız qaz və ördəklərdən də kəsib gətirmişəm. Gətirdiyim quş ətlərinin hamısını satmışam. Yarmarkaya məhsul gətirənlərə hərtərəfli şərait yaradılıb. Səliqə-sahman da satıcı və alıcıların ürəyincədir. Burada məhsulları bazar qiymətindən 15-20 faiz ucuz təklif edirik. Altı ildən artıqdır ki, ailə təsərrüfatı sahibiyəm. Şərur rayonunun bərəkətli torpaqları var. Bir əkən min götürür. Təsərrüfatımızda istehsal etdiyimiz məhsulların satışı üçün hər cür şərait var. Bütün bunlara görə minnətdarıq. Belə yarmarkaların təşkili torpaq mülkiyyətçilərinin, ailə təsərrüfatçılarının min bir zəhmətlə əldə etdikləri məhsulları rahatlıqla satmalarına və ailə büdcələrinin gəlirlərini artırmalarına şərait yaratmaqla yanaşı, daxili bazarı yerli məhsullarla da təmin edir. Yerli məhsullarımız isə həm dad-tamı, həm keyfiyyəti, həm də qiyməti ilə sakinləri daim cəlb edir.

Babək rayonunun Qahab kənd sakini ***Gülü Məmmədova*** da ailə təsərrüfatı sahibidir. O, yarmarkaya əriştə, yarma, mürəbbə və meyvə şirələri gətirib. O dedi: – Yaşım 60-ı keçib. İllərdir, nənələrimizdən bizə yadigar qalan qış azuqəsi hazırlamaq qaydalarını bu gün nəvələrimə də öyrədirəm. Əriştə kəsəndə, yarma hazırlayanda onlara tövsiyə edirəm ki, bu məhsulları hazırlamağı bilsinlər. Yarmarkaya gətirdiyim məhsullar da yaxşı satılır. Qış fəslinin ən çox sevilən yeməklərində işlədilən yarma və əriştə insan sağlamlığına faydalıdır. Yaradılan şəraitə görə dövlətimizə minnətdarıq.

Ordubad rayonunun Nüsnüs kənd sakini ***Famil Quliyev***lə də həmsöhbət oluruq. O, yarmarkaya müxtəlif meyvələr gətirib. Deyir ki, meyvəçiliklə məşğuldur. Münbit torpağımız və dövlət qayğısı bizi öz elimizə, obamıza daha möhkəm bağlayıb. Əkib-becərib əmək sərf edir, qarşılığını isə ikiqat görürük. İndi istər qadın, istərsə də kişi olsun, zəhmət çəkən bəhrəsini dadır. Dövlətimiz bizim yaxşı dolanışığımız üçün hər cür şərait yaradıb. Məhsulumuzu istədiyimiz kimi satır, ailə büdcəmizə kömək edirik. Bu cür yarmarkaların təşkili hamımızın ürəyincədir.




Şahbuz rayonunun Külüs kənd sakini ***Münəvvər Quliyeva*** bildirir ki, 30 ildir, rayonun dağlarından topladığı şəfalı bitkiləri qurudub satışa çıxarır. İlin hər fəslində bu bitkilərdən dəmlənən çaylar cana dərmandır. Bundan başqa, çaşır, baldırqan və digər bitkilərdən turşular hazırlayır. Bütün bu məhsulları yarmarkada satışa çıxarır.

Kəngərli rayonunun Şahtaxtı kənd sakini ***Təranə İmanova*** isə bunları dedi:

– On ilə yaxındır ki, ailə təsərrüfatı yaratmışıq. Hər cür şəraitimiz var. Tanrı torpağımıza elə bərəkət verib ki, ilin bütün fəsillərində ruzimiz olur. Rayonun dağlarından dağ nanəsi, kəklikotu və digər bitkilərdən, həyətyanı sahəmdən isə müxtəlif pencərlərdən yığıb quruduram. Qış fəslində yeməklərdə quru pencər çox istifadə edilir. Bundan başqa, meyvə quruları, tut doşabı hazırlayıram. Təşkil edilən yarmarkalar məhsulları satmaqda çox işimizə yarayır.

Sədərək rayonunun sakini ***Nazilə Əliyeva*** Sədərəkdə fəal qadın ailə təsərrüfatçılarından biridir. O deyir:

– Rayonumuzda təsərrüfatçılar üçün hər cür şərait yaradılıb. Kim istəyir ailə təsərrüfatı yaradır. İşləyən, zəhmət çəkən insanlar dövlətimizin qayğısından güc alaraq sahibkara çevrilir. Öz ailəsi ilə bərabər, bir neçə ailənin də çörəkpulu qazanmasına kömək edir. Həyətyanı sahəmdə və pay torpağımda əkib-becərdiyim məhsullardan hazırladığım yeməkləri, müxtəlif turşu növlərini, mürəbbə, doşab, meyvə cemlərini yarmarkaya gətirmişəm. Bunlarla yanaşı, qida kimi istifadə olunan yabanı bitkilərin, gündəlik istifadə etdiyimiz göyərtilərin qurusu da alıcıların diqqətini cəlb edir.

Yarmarkada olarkən şəhər sakinlərinin də fikrini öyrəndik. Naxçıvan şəhər sakini ***Validə Səfərova*** deyir ki, məzrə, nanə, reyhan, şüyüd, keşniş qurusu alıb. Elə yeməklər var ki, onlara göyərti qurusu qatanda daha dadlı olur. Bir qismini uzaqda yaşayan qohum-əqrəbasına sovqat göndərəcək. Həmsöhbətim onu da bildirir ki, bu cür yarmarkaların təşkili uzaqları yaxın edir. Yaşlı-cavan fərqi yoxdur. Bir meyvə qurusu və ya cəviz mürəbbəsi almaq üçün Ordubada və ya dastana almaq üçün Sədərəyə gedə bilmirik, amma dövlətimizin yaratdığı bu şəraitdən bəhrələnərək nə istəsək, alırıq. Sədərəyin ailə təsərrüfatlarından təndir dastanası, Ordubad rayonundan gətirilən sucuq, alana, cəviz mürəbbəsi, Şərurun bərəkətli torpağında yetişən göycə, şaftalı qurusu aldım.

Alıcılardan Naxçıvan şəhər sakini, 70 yaşlı Səkinə Abdullayevanın dediklərindən:

– Bu günlərdə biz qadınları düşündürən əsas məsələ qarşıdan gələn yeni ildə süfrəmizi necə bəzəyəcəyimizdir. Əvvəllər qış düşüb bayram yaxınlaşanda bilmirdik ki, neyləyək. 90-cı illərin əvvəlləri yaxşı yadımdadır, nə bir meyvə, nə tərəvəz, nə də ki ət olurdu bişirib süfrəyə qoymağa. Uşağın da, qonağın da yanında üzüqara olurdu insan. Bu gün isə min şükür, sağ olsun dövlətimizi bolluq yaradıb. Ürəyin istəyəni alıb süfrəyə qoya bilirsən.

Burada satıcı və alıcılarla söhbət etdikdən sonra belə qənaətə gəlirik ki, muxtar respublikamızda bütün sahələrlə yanaşı, kənd təsərrüfatının da inkişafına münbit şərait yaradılır, torpaq mülkiyyətçilərinə, ailə təsərrüfatlarına dəstək göstərilir. Ölkə başçımızın regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul etdiyi Dövlət proqramlarından irəli gələn vəzifələr muxtar respublikamızda uğurla icra olunur. Bütün bunlar daxili bazarın keyfiyyətli yerli məhsullarla təminatına, eləcə də istehsal olunan məhsulların satışına hərtərəfli şərait yaradır. Mərkəzi Bazarda təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı, bayram yarmarkalarında məhsul bolluğu da bunu bir daha təsdiq edir.



*Növbəti dəfə təşkil edilən kənd təsərrüfatı və sənaye məhsullarının satış yarmarkasında təqdirəlayiq hal kimi diqqətimizi çəkən o oldu ki, təsərrüfatçılar heç bir rüsum ödəmədən yetişdirdikləri bol məhsulu rahat şəkildə satır, alıcılar isə keyfiyyətli yerli məhsulları daha ucuz əldə edirlər. Bazarda yerli məhsullarla yanaşı, Azərbaycanın digər regionlarından gətirilmiş müxtəlif məhsulların da alıcısı çoxdur. Həmçinin sənaye müəssisələrində istehsal olunan məhsullar da topdansatış qiymətinə istehlakçılara təklif olunur. Bu da istehlakçılara daha rahat seçim imkanı qazandırmaq, eləcə də qiymətlərin tənzimlənməsi və ona nəzarət, alıcılara daha ucuz qiymətlərlə məhsul təklif etmək baxımından əhali tərəfindən razılıqla qarşılanır.*

**✍ Ramiyyə ƏKBƏROVA**

# Memarlıq və elektronika sahələri üzrə sərgi keçirilib



Naxçıvan Dövlət Universitetində memarlıq və elektronika sahələri üzrə sərgi keçirilib.

Memarlıq və mühəndislik fakültəsinin dekanı, professor Cavanşir Zeynalovun təşkilatçılığı ilə keçirilən sərgidə Kompüter mühəndisliyi, İnformasiya texnologiyaları, Ekologiya mühəndisliyi, Elektrik və elektronika mühəndisliyi, Proseslərin avtomatlaşdırılması və Energetika ixtisasları üzrə təhsil alan tələbələrin 20-dən çox əl işi nümayiş olunub.

Tələbələr tərəfindən təqdim olunan ilk layihə "Radar sistemi" adlanır. Hərbi hissələr, xüsusən sərhəd zonaları üçün hazırlanan aparat ultrasonik sensor vasitəsilə sərhəddə qarşıya çıxan maneə məlumatları avtomatik olaraq silaha yönləndirir. Beləliklə, silah maneəni dəf etmək üçün hərəkətə keçir.

Sadəcə, doğru kartla işləyən "Ağıllı kassa", sensorla məsafəni ölçən "Ağıllı məsafə sensoru", yüksək səslə çalışan "Ağıllı lampa", o cümlədən çoxfunksiyalı "Multi car" maşını kənar təsirlərdən qorunma və insan əməyinin asanlaşdırılmasına xidmət edir.

"Safe road" adlanan təhlükəsiz yol sisteminin məqsədi piyadaların təhlükəsizliyinin qorunması və maşınların qatar yolunda hərəkətini nizamlamaqdır.

Evin təhlükəsizliyi üçün nəzərdə tutulmuş "Ağıllı ev" layihəsi tənzimlənmiş məsafə ölçüsü ilə evə yaxınlaşan cisim və ya şəxs barədə siqnal verir və bu siqnal həm ev sahibinə, həm də polisə yönləndirilir.

Mexaniki naxışçəkən aparat olan "CNC Plotter" kompüterdəki təsvirin əyani köçürülməsini təmin edir. Bu aparat xalçatoxuma sənətində naxış salma üçün əlverişli vasitə kimi nəzərdə tutulub.

Radar-sürət sistemi ilə bağlı hazırlanmış digər bir qurğu radarın təkmilləşdirilmiş modelidir. Yolda quraşdırılması nəzərdə tutulan qurğu avtomobilin sürətini uzaq məsafədən ölçür. Sürət həddi aşılıbsa, o zaman yol polisinə məlumat ötürülür və polis maşını işə düşür.

Ekologiya mühəndisliyi ixtisası üzrə təhsil alan tələbələr tullantı məhsullarından hazırladıqları maketləri təqdim ediblər. "Eko yanacaq" adlı qurğu dəniz suyundan enerji əldə edilməsində, "ZF Recycling" aparatı isə terminallar vasitəsilə tullantıların yenidən istehsal prosesində istifadə baxımından səmərəlidir.

Elektrik kəsildiyi zaman internetin çalışmasını təmin edən "Powerbank" modemi, müasir avtomobillərin elektron qırıcı-paylayıcı sistemi üçün əyani vəsait olan "Alışdırma sistemi", internetin idarə olunmasına kömək edən "ViFi Gammer" adlı İnternet cipi gələcəkdə daha da təkmilləşdirilməsi nəzərdə tutulan layihələr sırasında yer alıb.

Hərbi təchizatda istifadə üçün nəzərdə tutulan "Torpaq gurlayıcı və ya basqınlayıcı" kiçikölçülü qurğu düşmən sərhədlərinə keçdiyi zaman gizliliyə zəmanət verir. Üzərində işıq, səs, temperatur və hərəkət sensorları olan qurğu təkərləri vasitəsilə bütün maneələri aşa bilir.

Sərgidə danışıq və görmə problemi olan şəxslər üçün hibridləşmiş köməkçi robotlar paketi də təqdim olunub. Gələcəkdə bu qurğularda dinamik naviqasiyadan istifadə olunması nəzərdə tutulur.

İşıq sensoru ilə çalışan "elektrik lampaları", "döşəmə təmizləyən robot", 25 santimetr məsafədən sensorla işləyən "smartlampa" kimi qurğular da öz funksionallığı ilə izləyicilərdə maraq yaradıb.

Təqdimatdan sonra çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev bildirib ki, ali təhsil ocağında elektronika sahəsinin inkişafına diqqət nəticəsində hər sərgi əvvəlkindən fərqlənərək daha da təkmilləşir. Vurğulanıb ki, növbəti sərgilərdə qarşıya qoyulmuş əsas məqsəd layihələr üçün irəli sürülmüş ideyaların müəlliflik hüququnun təmin edilməsidir. Bu həmin layihələrin qorunması üçün başlıca şərtdir. Rektor ideyalar sertifikatlaşdırıldıqdan sonra layihələrin əmək bazarına təqdim olunacağını bildirib.

Fakültə dekanı, professor Cavanşir Zeynalov sərgidəki ideyaların əksəriyyətinin bir neçə il öncə irəli sürüldüyünü, lakin reallaşmadığını diqqətə çatdırıb. Qeyd edib ki, insan həyatını dəyişdirən və asanlaşdıran innovativ ideyalar daha çox maraq cəlb edir. Dekan layihənin ideya rəhbərliyinin Elektronika və informasiya texnologiyaları kafedrasının müəllimi Asiman İsmayılova məxsus olduğunu vurğulayıb.

Sonda layihə iştirakçılarına sertifikatlar təqdim olunub.

***Naxçıvan Dövlət Universitetinin televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Həmrəylik Gününə həsr olunmuş cüdo yarışının qalibləri bəlli olub



İlham Əliyev adına Olimpiya İdman Kompleksində Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş yeniyetmələr arasında cüdo üzrə muxtar respublika birinciliyi keçirilib. 2009-2010-cu illər təvəllüdlü idmançıları əhatə edən yarışda 65 idmançı iştirak edib. Mükafatçılar 10 çəki dərəcəsi üzrə mübarizə aparıb.

İlk üç yerin sahibləri diplom və medallarla təltif olunublar. Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı, nazir müavini Məcid Seyidov bağlanış mərasimində iştirak edib, idmançılara mükafatları təqdim ediblər.

Nəticələrə gəlincə, Elvin Cəfərov 34, Əliislam Səfərli 38, Sinan Məhərrəmli 42, Ümid Əliyev 46, Fərda Cəlilzadə 50, Ariz Cabbarov 55, Fərid İbrahimli 60, İsa Əliyev 66, Yadulla Sadiqov 73 kiloqram, Rövşən Hüseynov isə 73+ kiloqram çəki dərəcələri üzrə birinci olublar.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Güləş Federasiyası tərəfindən birgə təşkil olunan birincilik əlamətdar günün qeyd olunması, cüdonun inkişafı, bu sahədə kütləviliyin təmini və istedadlı idmançıların yığma komandaya cəlb edilməsi məqsədi daşıyıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 1163